**E-1516**

**Azərbaycan Respublikası**
**Standartlaşdırma, Metrologiya və Patent üzrə**
**Dövlət Komitəsi**
**Apellyasiya şurasının**
**Qərarı**

**Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə**
**Dövlət Komitəsinin**
**Apellyasiya şurası**

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər–N.F.Nəsibova, Ə.M.Qarayeva

etiraz ərizəsini verən (iddiaçı)- fiziki şəxs Məmmədov Kamil Məmmədəli oğlunun *|ünvan: Şəki, Nakəm küç., ev 12|* və onun nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun və

qarşı tərəf “Çinar Yayımları” Məhdud Məsuliyyətli Cəmiyyətinin *|ünvan: AZ 1106, Bakı şəhəri, Nərimanov r-nu Şəmsi Rəhimov küç., ev 41, m. 0|* qanuni təmsilçisi Oruclu Bəhram İmamverdi oğlunun və nümayəndəsi Hənifəyev Əli Şamil oğlunun iştirakları ilə,

Z.T. Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

26.12.2017 il tarixdə “Çinar Yayımları” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “ çinar ” adlı kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatına qarşı /qeydiyyatı təsdiqləyən N2017 1056 nömrəli şəhadətnamə; qeydiyyat tarixi – 20.10.2017; ilkinlik – 05.09.2017; siniflər: 16, 35, 41) fiziki şəxs Məmmədov Kamil Məmmədəli oğlunun nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

İddiaçı etiraz ərizəsində qeyd edir ki, “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanının 16, 35 və 41-ci sinif əmtəə və xidmətləri üzrə qeydiyyatı “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-ci maddəsinin (f) bəndinə, 6-cı maddəsinin birinci hissəsinin (ç) bəndilərinin tələbləri pozulmaqla qeydiyyata alındığı üçün “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 29-cu maddəsi əsasında ləğv edilməlidir. Belə ki, mübahisəli əmtəə nişanını qeydiyyatından əvvəl Məmmədov Kamil Məmmədəli oğlu tərəfindən ilkin istifadə edilməsi ilə bağlı aşağıdakı sübutlar təqdim olunur:

Fiziki şəxs Məmmədov Kamil Məmmədəli oğlu və “CBS Polugraphic Production MMC” (VÖEN 1300649991) arasında “Kitabların çapı” üzrə 2016-2017 –ci il ərzində 02 dekabr 2016-cı il tarixli müqavilə imzalanmış, “CBS Polugraphic Production MMC” №0348 02 dekabr 2016-cı il tarixli sifarişlə 12 adda 10000 ədəd- kitabın dərci üçün sifariş verilmiş;

29 dekabr 2016-cı il tarixli ERQ № 000506 Kassa mədaxil qəbzi ılə sifariş üzrə bir hissəsi qabaqcadan ödənilmişdir;

13.02.2017-ci il tarixli məktubla Azərbaycan Respublikası Milli İSBN Agentliyi Xəzər Universitəsi tərəfindən 12 adda kitabın dərci üçün İSBN nömrələri ayrılmışdır;

Məmmədov Kamil Məmmədəli oğlunun sifarişi əsasında “Çinar yayımları və şəkil” əmtəə nişanının ilkin istifadəni təsdiq edən “CBS Polugraphic Production MMC” tərəfindən kitabların çapı üçün hazırlanmış 13.11.2015 və 24.09.2016-cı il tarixli offset çap maşınının CTP forma çap qəlibləri (klişeləri) sübut kimi təqdim edilmişdir;

28 mart 2018-ci il tarixli Qaimə-Faktura ƏOJ № 003398 ilə sübut olunur ki, “CBS Polugraphic Production MMC” tərəfindən 02 dekabr 2016-cı il tarixli müqavilə və №0348 tələbnamə əsasında və Azərbaycan Respublikası Milli İSBN Agentliyi Xəzər Universitəsi tərəfindən təqdim edilmiş İSBN 978-9952-8315-1-1 (Riyaziyyat 1-sinif) və İSBN 978-9952-8315-2-8 (Riyaziyyat 2 -sinif) nömrələri ilə 2 adda kitab 11.03.2017- tarixdə dərc olunmuşdur[6]. 31 mart 2018-ci il tarixli Qaimə-Faktura ƏOJ № 003402 ilə sübut olunur ki, CBS Polugraphic Production MMC tərəfindən 02 dekabr 2016-cı il tarixli müqavilə və №0348 tələbnamə əsasında və Azərbaycan Respublikası Milli İSBN Agentliyi Xəzər Universitəsi tərəfindən təqdim edilmiş İSBN 978-9952-8315-1-1 (Riyaziyyat 1-sinif) və İSBN 978-9952-8315-2-8 (Riyaziyyat 2 -sinif) nömrələri ilə 2 adda kitab 11.03.2017- tarixdə dərc olunmuşdur.

Təqdim edilmiş sənədlərlə sübut olunur ki, “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanı ilə eyni və qarışdırılacaq dərəcədə oxşar nişan Məmmədov Kamil Məmmədəli oğlu tərəfindən 13.11.2015, 24.09.2016-cı il tarixli offset çap maşınının CTP forma çap qəliblərində (klişe), 11.03.2017- tarixdə dərc olunmuş 1 –sinif Riyaziyyat, 2 –sinif Riyaziyyat və 4 -sinif Riyaziyyat kitablarında ilkin olaraq istifadə edilmişdir. Şərh edilənlər, “Çinar Yayımları” Məhdud Məsuliyyətli Cəmiyyəti və onun adına 20.10.2017-ci il tarixdə 2017 1056 sayla qeydiyyata alınan “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanının 05.09.2017-ci il tarixli ilkinliyindən daha əvvəl Məmmədov Kamil Məmmədəli oğlu tərəfindən Azərbaycan Respublikası ərazisində “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanı ilə eyni və qarışdırılacaq dərəcədə oxşar əmtəə nişanından istifadə edilməsini, istehlakçılar və istehsalçılar arasında tanınmasını sübut edir. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 6-cı maddəsinin (ç) bəndin ikinci hissəsində göstərilir: *“əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında ... eyni və ya oxşar əmtəələr və ya xidmətlər üzrə başqa şəxs tərəfindən istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan (tanınmış olan) əmtəə nişanları” əmtəə nişanı kimi qeydə alınmır*. İddiaçı hesab edir ki, “Əmtəə nişanları və

coğrafi göstəricilər haqqında qanunun” 6-cı maddəsinin (ç) bəndinin əsaslarını pozulmaqla qeydə alındığı üçün “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanının 16, 35 və 41-ci sinif əmtəə və xidmətləri üzrə qeydiyyatı həmin qanunun 29-cu maddəsi–“*6-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş əsaslara görə qeydiyyata dair məlumatın rəsmi bülletendə dərc edildiyi tarixdən 5 il ərzində tamamilə və ya qismən etibarsız sayıla bilər”* əsasında etibarsız sayılmalıdır. “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanının 16, 35 və 41-ci sinif əmtəə və xidmətləri üzrə qeydiyyatı rəqibin əmtəələrinin və ya sənaye və ya ticarət fəaliyyətinin eyniləşdirilməsi və qarışdırılmasının qadağan edilməsi barədə Paris Konvensiyasının $10^{bis}$ maddəsinin və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-ci maddəsinin (f) bəndinin tələblərini pozmuşdur. Sənaye mülkiyyətinin qorunması üzrə Paris Konvensiyasının $10^{bis}$ (Haqsız rəqabət) maddəsində göstərilir:

(1) Üzv dövlətlər İttifaqda iştirak edən dövlətlərin vətəndaşlarını haqsız rəqabətdən effektiv mühafizə etməyə borcludurlar.

(2) Haqsız rəqabət aktı sənaye və ticarət fəaliyyətində istənilən vicdanlı qaydalara zidd rəqabət aktı sayılır.

(3) Xüsusilə qadağan etmək lazımdır:

1. Rəqibin ..., məhsulunun və ya ... ticarət fəaliyyətinin hər hansı qaydada qarışdırıla bilməsinə (istehlakçını çaşdıra bilməsinə) səbəb olan, bütün hərəkətlər;”

Həmin maddə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-cı maddəsinin (f) bəndində öz əksini tapmışdır:
“əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanlarının əmtəə nişanı kimi qeydə alınmasına yol verilmir”.

İddiaçı hesab edir ki, Sənaye mülkiyyətinin qorunması üzrə Paris Konvensiyasının 10bis–cu (Haqsız rəqabət) maddəsi və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunun” 5-ci maddəsinin (f) bəndinin əsaslarını pozulmaqla qeydə alındığı üçün, “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanının 16, 35 və 41-ci sinif əmtəə və xidmətləri üzrə qeydiyyatı “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun ”29-cu maddəsinə – “5-ci maddənin tələbləri pozulmaqla qeydə alınmışsa, qeydiyyatın qüvvədə olduğu müddət ərzində, tamamilə və ya qismən etibarsız sayıla bilər”əsasında etibarsız sayılmalıdır. Yuxarıda sərh olunanları nəzərə alaraq, Apellyasiya şurasından, “Sənaye mülkiyyətinin qorunması üzrə Paris Konvensiyasının” 10bis (Haqsız rəqabət) maddəsinə, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-ci maddəsinin (f) bəndinə və 6-cı maddəsinin birinci hissəsinin (ç) bəndinə və 29-cu maddəsinə –“5-ci maddənin tələbləri pozulmaqla qeydə alınmışsa, qeydiyyatın qüvvədə olduğu müddət ərzində, 6-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş əsaslara görə isə qeydiyyata dair məlumatın rəsmi bülletendə dərc edildiyi tarixdən 5 il ərzində tamamilə və ya qismən etibarsız sayıla bilər” əsaslanaraq, “Çinar Yayımları” Məhdud Məsuliyyətinin adına 20.10.2017-ci il tarixdə 2017 1056 sayla qeydiyyata alınmış “ ” “Çinar yayımları və şəkil” əmtəə nişanının 16, 35 və 41-ci sinif əmtəə və xidmətləri üzrə qeydiyyatının etibarsız sayılaraq ona Xitam verilməsi haqqında qərar verilməsini xahiş etmişdir.

Qarşı tərəf “Çinar Yayımları” MMC-nin təsisçisi B.Oruclu ərizəsində qeyd etmişdir ki, “ÇİNAR YAYIMLARI” MMC onun təsisçisi Bəhram Oruclu tərəfindən 30.05.2017-ci il tarixdə Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyata alınmışdır. “ÇİNAR NƏŞRİYYATI” MMC isə

05.09.2017-ci il tarixdə Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyata alınmışdır. “Çinar Yayımları” MMC-nin adına “ çinar ” kombinasiya edilmiş əmtəə nişanı 16, 35, 41-ci siniflərin əmtəələri və xidmətləri üzrə **20.10.2017 il tarixində 2017 1056** nömrəsi altında qeydiyyata alınmışdır. http://cinaryayimlari.com saytı 2016-cı ildə ilk olaraq B.Oruclunun bank kartından ödəniş hesabına yaradılmışdır. “Çinar yayimlari” adlı facebook səhifəsi B.Oruclu tərəfindən 2015-ci ildə yaradılmış və müntəzəm olaraq bank kartından bu səhifənin reklamı üçün pul köçürülmüşdür. Cinaryayimlari adlı ilk instagram səhifəsi, cinaryayimlari@gmail.com e-maili həmçinin ona məxsusdur. Göstərilənləri nəzərə alaraq etiraz ərizəsinin təmin edilməməsinin xahiş etmişdir.

“Çinar Yayımları” MMC-nin təsisçisi B.Oruclunun nümayəndəsi Ə.Hənifəyev etiraz ərizəsinin təmin edilməməsinin xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçı Məmmədov Kamil Məmmədəli oğlunun və nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun, qarşı tərəf “Çinar Yayımları” MMC-nin təsisçisi B.Oruclunun və nümayəndəsi Ə.Hənifəyevin çıxışlarını dinləyib, hesab etdi ki, iddia təmin edilməməlidir.

İş materiallarından görünür ki:

Fiziki şəxs Məmmədov Kamil Məmmədəli oğlu və CBS Polugraphic Production firması arasında bağlanmış 02 dekabr 2016-cı il tarixli müqaviləyə əsasən icraçı “Kitabların hazır diapazitivlərdən” çapını 2016-2017 ci illər ərzində həyata keçirməyi öhdəsinə götürür;

02 dekabr 2016-cı il tarixli müqavilədən irəli gələn 0348 saylı hesab-fakturaya əsasən 12 adda 10000 ədəd kitabın dərci sifariş verilmiş, 29 dekabr 2016-cı il tarixli ERQ № 000506 Kassa mədaxil qəbzi ılə sifariş üzrə məbləğin bir hissəsi qabaqcadan ödənilmişdir;

Azərbaycan Respublikası Milli İSBN Agentliyi Xəzər Universitəsi Nəşriyyatı tərəfindən Kamil Məmmədova ünvanlanmış 13.02.2017-ci il tarixli məktubundan görünür ki, 12 adda kitabın dərci üçün İSBN nömrələri ayrılmışdır;

28 mart 2017-ci il tarixli, ƏOJ № 003398 saylı Qaimə-Fakturadan görünür ki, “CBS Polygraphic Production” firması tərəfindən Riyaziyyat 1-ci sinif Yarpaq test və Riyaziyyat 2-ci sinif Yarpaq test adlı kitablar 11.03.2017- tarixdə dərc olunmuşdur;

31 mart 2018-ci il tarixli, ƏOJ № 003402 saylı Qaimə-Fakturadan görünür ki, “CBS Polygraphic Production” firması tərəfindən Riyaziyyat-4cü sinif Yarpaq test adlı kitab dərc olunmuşdur;

Məmmədov Kamil Məmmədəli oğlunun sifarişi əsasında “CBS Polygraphic Production” firması tərəfindən kitabların çapı üçün hazırlanmış 13.11.2015 və 24.09.2016-cı il tarixli offset çap maşınının CTP forma çap qəlibləri (klişeləri) sübut kimi təqdim edilmişdir;

“CBS Polygraphic Production” firması tərəfindən verilmiş 23 fevral 2018-ci il tarixli arayışda qeyd edilmişdir ki, Məmmədov Kamil Məmmədəli oğlunda olan 13.11.2015-ci il tarixli və 24.09.2016-cı il tarixli CTP çap qəlbləri onun sifarişi ilə mətbəələrində hazırlanmışdır.

Apellyasiya şurası müəyyən etdi ki:

Azərbaycan Respublikası Vergilər Nazirliyi Kommersiya qurumunun Dövlət reyestrindən çıxarışdan görünür ki, “ÇİNAR YAYIMLARI” MMC 30.05.2017-ci il tarixdə Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyata alınmışdır;

Azərbaycan Respublikası Vergilər Nazirliyi Kommersiya qurumunun Dövlət reyestrindən çıxarışdan görünür ki, “ÇİNAR NƏŞRİYYATI” MMC 05.09.2017-ci il tarixdə Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyata alınmışdır;

“Çinar Yayımları” MMC-nin adına “ ” kombinasiya edilmiş əmtəə nişanı 16, 35, 41-ci siniflərin əmtəələri və xidmətləri üzrə **20.10.2017 il tarixində 2017 1056** nömrəsi altında qeydiyyata alınmışdır (ilkinlik tarixi – 05.09.2017).

Iş materiallarından görünür ki, “cinaryayimlari” adlı facebook səhifəsi 2015-ci il tarixdə, http://cinaryayimlari.com saytı 2016-cı ildə Oruclu Bəhram tərəfindən edilmiş ödəniş hesabına yaradılmışdır, “cinaryayimlari” adlı instagram səhifəsi və cinaryayimlari@gmail.com e-maili Oruclu Bəhram tərəfindən yaradılmışdır.

“Çinar Yayımları” MMC-nin təsisçisi Oruclu Bəhram İmamverdi oğlu və “Çinar” adlı loqotipin dizaynının müəllifi Sədaqət Nazim qızı Şahbazova arasında bağlanmış 09 mart 2018-ci il tarixli müəllif müqaviləsinə əsasən müəllif əsərdən Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda hüquq sahibinə bütün üsullarla istifadə etmək üçün həmişəlik müstəsna hüquqları verir.

“Çinar Yayımları” MMC-nin təsisçisi Oruclu Bəhram İmamverdi oğlu və “Riyaziyyat Yarpaq test 1-ci sinif” adlı metodiki vəsaitin komputer dizaynının müəllifi Aytən İlyas qızı Rzayeva və Sədaqət Nazinm qızı Şahbazova arasında bağlanmış 01 iyun 2017-ci il tarixli müəllif müqaviləsinə əsasən dizayn müəllifləri əsərdən Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda hüquq sahibinə bütün üsullarla istifadə etmək üçün həmişəlik müstəsna hüquqları verirlər.

Oruclu Bəhram İmamverdi oğluna Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən əsərin qeydiyyatı haqqında 9540 saylı, 9541 saylı və 10095 saylı şəhadətnamələr verilmişdir.

İddiaçı etiraz ərizəsində “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-cı maddəsinin “f” və 6-cı maddəsinin 1-ci hissəsinin “ç” bəndinə istinad edir.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-cı maddəsinin “f” bəndində göstərilmişdir ki:

**“əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanlarının əmtəə nişanı kimi qeydə alınmasına yol verilmir”. İ**ddiaçı hesab edir ki, həmin Qanunun 5-ci maddəsinin (f) bəndinin əsaslarını pozmaqla qeydə alınmışdır və ona görə “ ” adlı kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatı (2017 1056 nömrəli qeydiyyat) etibarsız sayılmalıdır. Lakin hansı səbəblərə görə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-cı maddəsinin “f” bəndinin şərtləri bu işə aidiyyatı olunmasını iddiaçı tərəfindən açıqlanmır. Belə olan halda Apellyasiya şurası hesab edir ki, həmin normalara istinad edilməsi əsassızdır, yəni bu işə aidiyyatı yoxdur.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin 1-ci hissəsinin “ç” bəndində qeyd edilmişdir ki, *“Aşağıdakılarla eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır:*

***ç) əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr yaxud xidmətlər üzrə başqa şəxsin adına mühafizə olunan və ya geniş tanınmış kimi müəyyən edilən və ya istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan firma adları (firma adlarının hissələri);***

***əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr və ya xidmətlər üzrə başqa şəxs tərəfindən istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan (tanınmış olan) əmtəə nişanları”.*** İddiaçı hesab edir ki, həmin Qanunun 6-cı maddəsinin 1-ci hissəsinin “ç” bəndinin tələbləri pozmaqla “ ” adlı kombinasiya edilmiş əmtəə nişanı qeydiyyata (2017 1056 nömrəli qeydiyyat) alınmışdır. Yəni 2017 1056 nömrəli qeydiyyatı əmtəə nişanın ilkinlik tarixindən əvvəl (ilkinlik – 05.09.2017) “çinar yayımları” kombinasiya edilmiş əmtəə nişanı “çap əmtəələri” üzrə başqa şəxs (Məmmədov Kamil Məmmədəli oğlu) tərəfindən Azərbaycan Respublikasında istifadə olunmuşdur. Apellyasiya şurasına iddiaçı tərəfindən təqdim edilmiş sübutlar kifayət deyil. Belə ki, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin 1-ci hissəsinin “ç” bəndinin 2-ci abzasında verilən şərtlərə görə, qeydiyyata alınmış əmtəə nişanının ilkinlik tarixindən əvvəl ilkin istifadəçi (K.M.Məmmədov) tərəfindən əmtəə nişanını ***istifadəsi zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olunmalıdır (tanınmış olmladır).***

**Apellyasiya şurası hesab edir ki, iddiaçı tərəfindən təqdim edilmiş sənədlər** “ ” adlı kombinasiya edilmiş əmtəə nişanı ilə eyni və qarışdırılacaq dərəcədə oxşar əmtəə nişanından istifadə edilməsini, istehlakçılar və istehsalçılar arasında tanınmasını, yəni ***fərqlənmə qabiliyyətinə malik olunmasını*** sübut etmir.

Şərh edilənlərə əsasən və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 1-ci, 4-cü, 10-cu 29-cu maddələrini, 5-ci maddəsinin “f” bəndini, 6-cı maddəsinin birinci hissəsininim “ç” bəndini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

**1.** “Çinar Yayımları” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “ ” adlı kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatına qarşı ( qeydiyyatı təsdiqləyən N2017 1056 nömrəli şəhadətnamə) fiziki şəxs Məmmədov Kamil Məmmədəli oğlunun nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi təmin edilməsin.

2. Apellyasiya şurasının qərarının alındığı tarixdən 3 ay ərzində Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

N.F.Nəsibova

Ə.M.Qarayeva